**UOT 378**
**https://doi.org/10.59849/2311-8482.2025.2.35**

**TURAL ADIŞİRİNOV***

# AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNDƏN ƏLDƏ OLUNAN ALQIŞ VƏ QARĞIŞ NÜMUNƏLƏRİNİN TİPOLOGİYASI VƏ SEMANTİK XÜSUSİYYƏTLƏRİ

*Məqalədə Azərbaycanın şimal-qərb bölgəsindən toplanmış alqış və qarğış nümunələrinin tipoloji və semantik xüsusiyyətləri tədqiqata cəlb olunur. Tədqiqatçı bu janrların folklor poetikası, mifoloji təfəkkür sistemi, məişət etnoqrafiyası və tarixi-mədəni kontekstləri baxımından təhlilini həyata keçirir. Tədqiqatda alqış və qarğışların Dədə Qorqud dastanı ilə tipoloji əlaqələri xüsusi vurğulanır. Müəllif dastanın müxtəlif boylarından gələn alqış və qarğış arxetiplərinin şimal-qərb bölgəsinin çağdaş folklor nümunələrində yaşadılmasını elmi müqayisələr əsasında əsaslandırır. Bu yanaşma, dastan-folklor əlaqələrinin aktual və praktik təhlilinə imkan yaradır. Məqalədə həmçinin bölgənin alqış və qarğışlarının mifoloji aspektdən tədqiqi aparılır. Xüsusilə, çevrilmə (transformasiya) motivi – daşa, quşa, dağa, torpağa və s. çevrilmə invariantlarının qarğış mətnlərindəki izləri mifoloji paradiqma çərçivəsində şərh olunur. Bu yanaşma müasir folklorşünaslıq üçün elmi yenilik kimi qiymətləndirilə bilər. Bundan əlavə, müəllif bölgənin alqış və qarğışlarında əksini tapan ritual və məişət adət-ənənələrinin funksional təhlilini apararaq, onların ictimai davranış kodeksinin qorunmasında və nəsildən-nəslə ötürülməsində mühüm rol oynadığını göstərir. Məqalə, həm janrın arxaik qatlarını, həm də aktual sosial funksiyalarını işıqlandırmaq baxımından nəzərəçarpacaq elmi əhəmiyyət daşıyır.*

***Açar sözləri:*** *alqış və qarğışlar, arxaik janr, mifoloji düşüncə, Dədə Qorqud dastanı, adət-ənənə*

## Giriş

Azərbaycanın şimal-qərb bölgəsinin folkloru ümumazərbaycan folklorunun çoxşaxəli və zəngin bir tərkib hissəsidir. Xüsusən, Azərbaycanın şimal-qərb bölgəsinə aid olan Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən rayonlarından toplanmış zəngin folklor örnəklərində özünəməxsus spesifik cəhətlər, elmi - tədqiqat üçün yenilik daşıyan məqamlar diqqətçəkicidir.

Şimal-qərb bölgəsindən əldə olunan nağılların epik yaddaşımız, düşüncə qaynağımız olan "Kitabi-Dədə Qorqud" dastanının boyları ilə, həmçinin bölgə folklorunda "ağac" kultunun "Oğuz kağan" dastanı və Altay mifologiyası ilə paralelliyi bu bölgənin folklorunun özünəməxsus və orijinal səciyyə daşıyan cəhətlərindən biridir. Şimal-qərb bölgəsinin folklorunda arxaik janrlardan olan alqış və qarğış nümunələrinin araşdırılması, toplanan folklor örnəklərində alqış və qarğışların tipologiyasının, nəzəri təhlilinin tədqiqat müstəvisinə gətirilməsi elmi-tədqiqat üçün yenilik daşıyır.

Qeyd edək ki, alqış və qarğışlar qədim türk mifologiyasının izlərini öz genetik yaddaşında qoruyan ən qədim arxaik janrlardan biridir. Xüsusilə də, Azərbaycan xalqının tarixi-mifoloji düşüncəsinin və mənəvi mədəniyyətinin tərkib hissəsi kimi çox qiymətlidir. Alqış və qarğışlar sadəcə dil vasitəsi deyil, onlar həm də xalqın dünyagörüşünün, mədəniyyətinin və emosional ifadə tərzinin güzgüsüdür. Bu sözlər əsrlərin sınağından çıxaraq sosial münasibətlərdə öz yerini qoruyub saxlamışdır. Alqış və qarğışlar xalqımızın keçmişdən gələn dərin söz ehtiyatının və düşüncə tərzinin bir parçasıdır. Tarix boyu insanlar yaşadıqları hadisələri, münasibətləri və duyğularını sözlə ifadə edərkən alqış və qarğışlara müraciət ediblər. Həm sevinc, həm də kədər anlarında bu ifadələr xalq dilində təbii olaraq formalaşıb və nəsildən-nəslə ötürülüb.

Biz gündəlik həyat tərzimizdə demək olar ki, hər gün alqış və qarğışlara rast gəlirik. Bir çox hallarda insanlar yaxşı bir hadisə qarşısında "Allah xoşbəxt eləsin", "Yaxşı yerdə olasan", "Ağ günə çıxasan", "Toy şirnini yeyim" [9, s.71] kimi alqışlarla minnətdarlıq və arzularını bildirirlər. Eyni zamanda, ədalətsizlik və haqsızlıq qarşısında "Allah bəlanı versin", "Gözün çıxsın", "Əlin qurusun" [7, s.104] kimi qarğışlarla etirazlarını ifadə edirlər. Alqış və qarğışlar bir növ sosial həyatımızın bir parçasına çevrilib. Xalq arasında bu arxaik janrlar yalnız fərdi deyil, həm də kollektiv duyğuların təzahürü kimi çıxış edir. Toyda, yasda, ailə içində və ya məclislərdə səslənən alqış və qarğışlar həm ünsiyyət vasitəsi, həm də dərin mənəvi anlam daşıyır.

Mərasimlərlə bağlı olan bu arxaik janr nümunələri xalqın dünya görüşünü, əxlaqi ölçülərini, xeyir və şəri necə dəyərləndirdiyini göstərir.

Alqışları biz xeyirxahlığın, sevincin, ümidin simvolu kimi xarakterizə edə bilərik. Alqışlar xalqın bir-birinə olan hörmətini, sevgisini və xeyirxahlığını ifadə etmək üçün istifadə etdiyi vasitələrdən biridir. Toy və nişan mərasimlərində, yeni evə köçəndə, uşağın doğulması və ya yeni işə başlayan zaman insanlar bir-birinə alqışlar deyirlər. Bu, yalnız bir arzu deyil, həm də insanların insanlara verdiyi mənəvi dəstəyin təzahürüdür. Məsələn: "Allah xoşbəxt eləsin", "Ocağın sönməsin", "Cansağlığıyla oturasan", "Evindən körpə səsi gəlsin", "Ağ günnü, ağ çörəkli olasan", "Əlin xeyirli işlərə açılsın", "Bəxtin qabağında getsin" və.s. [5, s.37]

Qarğışlar isə haqsızlığa qarşı üsyan, acının səsidir. Qarğışlar xalq arasında adətən narazılıq, qəzəb, xəyal qırıqlığı və ya haqsızlıq hissi zamanı səslənir. Qarğışın kökündə çox zaman bir ədalətsizlik və ya mənəvi zərbə dayanır. Bu cür ifadələr insanlar arasında münasibətlərin pozulduğu hallarda daha çox istifadə olunur. Məsələn, "Evin yıxılsın, "Səni görüm qara günə qalasan", "Yurdunda itdər ulaşsın", "Başından qara açılmasın", "Toyun yasa dönsün", "Torpağa dönəsən", Adın qara daşa yazılsın", və.s . [8, s.405]

Tədqiqatçı Bəhlul Abdulla alqış və qarğışların yaranmasını ruhlarla əlaqləndirərək yazır: "Güman ki, "alqış" ifadəsindəki "al" qarğışdakı "qara" da elə ruh adlarıdır və birincisi xeyirxah, ikincisi bəd əməllər hamisidir". [3, s.144]. Deməli, "Alqış" – yaxşı ruhların çağırışı və xeyir arzu etmə, "qarğış" – pis ruhların çağırışı və zərər arzu etmə aktıdır. Bu, həm dilçilik baxımından, həm də mifoloji-etnoqrafik aspektdən maraqlı bir yanaşmadır.

Professor Azad Nəbiyev "Azərbaycan xalq ədəbiyyatı" kitabında Azərbaycan folklorşüanslığının arxaik janrlar sistemində xüsisi yer tutan, hal- hazırda isə xalq arasında yaşamaqda olan alqış və qarğışları aşağıdakı kimi qruplaşdırmışdır:

1.Mərasimlərlə bağlı yaranan alqış və qarğışlar.

2.Məişətlə bağlı yaranan alqış və qarğışlar.

3.Mifoloji və dini təsəvvürlərin təsiri ilə yaranan alqış və qarğışlar [1, s.320]

**Əsas hissə.** Alqış və qarğışı mifik düşüncə və epik mətn formulu kimi biz ana abidəmiz olan "Dədə Qorqud" dastanında daha aydın görürük. "Ol zəmanda bəglərin alqışı – alqış, qarğışı – qarğış idi. Duaları müstəcab olurdı" [4, s.10] konsepti buna ən bariz nümunədir. Məhz bu baxımdan dastandakı alqış və qarğışlar dastanın poetik strukturunu qurur, epik qəhrəmanların mənəvi-mifik inkişafına istiqamət verir, dastanda xalqın dünyagörüşünü, etik-fəlsəfi baxışlarını təcəssüm etdirir. Maraqlıdır ki, dastanının bütün boylarının "yum" hissəsində alqış formuluna rast gəlirik. Dastanda qarğış formulu da bütün boylarda olmasa da, bir neçə boyda nəzərə çarpır.

Şimal-qərb bölgəsindən toplanan alqış və qarğışlar "Kitabi-Dədə Qorqud" dastanının dili, obrazlar sistemi və semantikası ilə dərin bağlılığa malikdir. Bu alqış və qarğışların bir çoxu "Dədə Qorqud" dastanının boylarında işlənmiş motiv və ifadələrin xalq yaddaşında yaşamasının bir göstəricisidir. Bölgədən toplanan *"Əziziyin qanlı köynəyi üstünə gəlsin", "Addı iyid olasan", "Ovun uğurru olsun, ovun qannı olsun", "Canına canım sadağa olsun", "Əlin qurusun"* və.s [11, s. 248 ] alqış və qarğış örnəklərini dastanın boyları əsasında müqayisəli izah edək.

*"Əziziyin qanlı köynəyi üstünə gəlsin"* – qarğışı folklorda bir lənət və nifrin formasıdır. Burada "qanlı köynək" motivinə xüsusi diqqət edək. Motivin *"Dədə Qorqud" dastanının boyları ilə əlaqəsinə baxaq:* "Qanlı köynək" motivi xüsusilə "Qanlı Qoca oğlu Qanturalı" boyunda özünü göstərir. Bu boyda qəhrəmanlıq və ölüm motivləri iç-içədir və qəhrəmanların döyüşdən sonra geyimlərinin qan içində qalması bir simvol olaraq təqdim edilir. Bundan əlavə, "Basatın Təpəgözü öldürdüyü boy"da da qəhrəman döyüşdən sonra qana bulaşır. Burada köynəyin qana bulanması həm faciəni, həm də intiqamı xarakterizə edir. Daha bir bağlılıq "Baybörənin oğlu Bamsı Beyrək boyu"ndadır. Boyda Beyrəyin qanlı köynəyi bacılarının üstünə gəlir. Qanlı köynək burada ölüm xəbərinin simvolu kimi çıxış edir. Beyrəyin köynəyinin qan içində olması onun şəhid olduğunu göstərir. Bu köynəyin bacılarının üstünə atılması isə həm qisas çağırışı, həm də yas və kədərin kulminasiya nöqtəsidir. Bacıların bu hadisəyə reaksiyası, bir növ mifoloji gücün oyanması, qadın həyəcanının və qarğışının epik gücə çevrilməsi formuludur. Bu motivin bölgənin bəzi qarğış mətnlərinə də keçməsi, qanlı köynəyin üzə atılması, göz önünə gətirilməsi

metaforası, kədərin fiziki bir əşyayla göstərilməsi adətinin göstəricisi, həmçinin xalq etnokluturunun nümunəsidir.

*"Addı iyid olasan"* – Bölgənin folklorunda işlənən bu alqış növü *"Dədə Qorqud"* dastanındakı *adqoyma və adalma* mərasimi ilə birbaşa bağlıdır. Dastanda adalma dastan qəhrəmanlarının ən üstün fəaliyyətidir. Adverilməsi motivi bilirik ki, dastanın 2 boyunda - "Dirsə xan oğlu Buğac boyu"nda və "Baybörənin oğlu Bamsı Beyrək boyu"nda təzahür edir. Görünür bölgənin folklorunda da geniş istifadə olunan bu alqışlar igidliyə verilən dəyərin, xeyir-dua ənənəsinin və epik qəhrəmanlıq anlayışının təzahürüdür.

*"Ovun uğurru olsun, ovun qannı olsun"* – Şimal-qərb bölgəsindən əldə edilən bu alqış nümunəsi "Dədə Qorqud"dakı çox işlənən ov formuluna birəbir uyğun gəlir. Dastanda işlənən ov ritualı yalnız fiziki fəaliyyət deyil, epik strukturun ayrılmaz hissəsidir. Dastanının "Qazan xan oğlu Uruzun dustaq olduğu boy"da yer alan ov mərasimi gənc bir oğlanın ilk dəfə ova çıxması, yəni yetkinlik mərasiminin rəmzi kimi dərin mənalar daşıyır. Bu səhnə, oğul ilə ata arasında münasibəti, qəhrəmanlıq dəyərlərini və türklərin ənənəvi ov ayinlərini əks etdirir. Oğuz igidləri ovda qəhrəman kimi tanınır, Dədə Qorqud isə bu mərasimlərdən sonra onlara alqış, xeyir-dua verir, ad verir, beləliklə ov mifoloji və ictimai bir ayinə çevrilir. Məhz bu ritual şimal-qərb bölgəsinin əhalisi arasında az da olsa yaşamaqda olan ovçuluq peşəsində yaşayır və bu alqış növündə ova gedən üçün xeyir-dua, uğurlama edilir.

*"Canına canım sadağa olsun"* – alqışı bölgənin folklorunda geniş işlənən, "Dədə Qorqud" dastanının dili və ruhu ilə bağlı olan, qədim türk mədəniyyətindəki alqış-dua ənənəsinin müasir davamıdır. Dastandakı sevgi, fədakarlıq və hörmət anlayışlarının bir xalq deyimi şəklində bu gün də yaşaması bu bağlılığın sübutudur. Dastanda qəhrəmanla arasında – istər ailə üzvləri, istərsə də silahdaşlar arasında duyulan bağlılıq və fədakarlıq hissi "canı can uğrunda fəda etmək" düşüncəsiylə üst-üstə düşür. Məsələn, "Böybörənin oğlu Bamsı Beyrək boyu"nda Banu Çiçəyin Beyrəyə olan sədaqəti, "Dəli Domrul" boyunda Domrulun öz ömrünü valideyinlərinin canı uğrunda bağışlamağa hazır olması, qan qohumluğu ilə mənəvi qohumluğun vəhdəti çərçivəsində Domrulun qadınının öz canını əri üçün fəda etməsi tandemi "canım canına sadağa" fikrinin dastan daxilində təcəssümüdür. Türk düşüncəsində "can" anlayışı ilahi əmanət hesab olunur və birinin canını digəri uğrunda fəda etməsi ali əxlaqi davranış nümunəsi kimi qiymətləndirilir. Dədə Qorqud boylarındakı bu fədakarlıq səhnələri, həm qəhrəmanlıq paradiqmasının qurulmasında, həm də mənəvi dəyərlərin ötürülməsində əsas struktur elementlərdən birinə çevrilir.

*"Əlin qurusun"* – qarğışı "Dədə Qorqud" dastanının boylarından günümüzə qədər gəlib çatan xalqın etik kodeksini və dəyərlər sistemini özündə əks etdirən köklü qarğışlardan biridir. Dastanın "Bamsı Beyrək boyu"nda Dədə Qorqud onu vurmaq istəyən Dəli Qacara "Vursan, əlin qurusun" deyə qarğış edir. Folklorda əl yalnız fiziki orqan deyil, əməl, güc, iqtidar və niyyət simvoludur. "Əlin qurusun" ifadəsi əməli ilə ziyan vuranın bu gücündən məhrum olmasını istəməkdir. Dəli Qacarın Dədə Qorquda əl qaldırmaq istədiyi an bu söz deyilir və bu sözlə qarşı tərəf hərəkətsiz qalır. Bu, həm də "sözlə cəza vermə" anlayışıdır ki, folklorda buna "qarğışın tutması" deyilir. Dədə Qorqudun dilindən çıxan bu söz sadəcə qarğış deyil, ilahi gücün təcəllasıdır.

Şimal-qərb bölgəsinin alqış və qarğışlarında mifoloji təzahür də maraq doğuran məsələlərdəndir. Bölgədən əldə olunan alqış və qarğış nümunələrində mifoloji rakurs özünü çox aydın göstərir. Xüsusilə çox işlənən mifoloji paradiqmalardan olan çevrilmə motivinin daşa, quşa, dağa, torpağa və.s çevrilmə invariantlarına bölgənin qarğış örnəklərində daha çox rast gəlirik. Məsələn: "Daşa dönəsən", "Torpağa dönəsən", "Qaralıb quşa dönəsən" və.s. qarğış örnəkləri buna misal ola bilər.

*"Daşa dönəsən"* - qarğışı ilk baxışda sadəcə olaraq hərəkətsizlik, cansızlıq, duyğusuzlaşma mənasını versə də, onun dərin mifoloji kökləri mövcuddur. Antik Yunan mifologiyasında Meduzanın baxışı ilə insanları daşa çevirməsi kimi nümunələr insanın cəzalandırılaraq təbiətin bir parçasına — bu halda, daşa — çevrilməsinin universal mifoloji motiv olduğunu göstərir. Azərbaycan xalq düşüncəsində də daş yalnız cansız maddə deyil, həm

də keçmişin, günahın və əbədi durğunluğun simvoludur. Daşa dönmək, həm cəza, həm də ruhun bədəndən çıxması ilə bağlı metafizik bir vəziyyəti bildirir.

*"Torpağa dönəsən":* ifadəsi isə həm bir ölüm qarğışı, həm də insanın yer ünsürü ilə birləşməsinə işarədir. Yer kultu, demək olar ki, bütün qədim mədəniyyətlərdə, o cümlədən türk və Azərbaycan mifoloji düşüncəsində mühüm yer tutur. Torpaq həm ana, həm həyat verici, həm də ölümlə bağlanan varlıq kimi qəbul olunur. Bu baxımdan "torpağa dönmək" sadəcə yox olmaq deyil, həm də təbiətə qayıdış, bir dövrənin tamamlanması kimi də başa düşülə bilər. Beləliklə, bu qarğış ölümün mistik aspektlərini özündə daşıyır və insanın torpaqla eyni mahiyyətə sahib olduğu inamını əks etdirir.

*"Qaralıb quşa dönəsən":* bu ifadə isə bir neçə səviyyəli semantik struktura malikdir. "Qaralanmaq" sosial damğalanma, rüsvayçılıq, ictimai təcrid anlamı daşıyır. Eyni zamanda, "quş olmaq" ifadəsi bir tərəfdən azadlıq, digər tərəfdən isə cəmiyyətdən uzaqlaşmaq, yalnızlaşmaq mənası verir. Qədim türk totemizminə görə, quşlar göy ünsürü ilə bağlı varlıqlar idi və insanlarla Tanrı arasında vasitəçi sayılırdı. "Quşa çevrilmək" burada həm də insanın maddi dünyadan ayrılması, qeyri-insani forma alması kimi anlaşılır. Bu qarğışda həm cəza, həm də metafizik çevrilmə eyni anda ifadə olunur.

Nümunələrdən də gördüyümüz kimi, bölgənin xalq qarğışlarında çevrilmə motivi sadəcə dilin emosional ifadəsi deyil, həm də dərin mifoloji, totemik və fəlsəfi dünyagörüşün ifadəsidir. "Daşa dönmək", "torpağa qovuşmaq", "quşa çevrilmək" kimi ifadələr insanla təbiət, ruhla maddə, cəmiyyətlə fərd arasında qədim münasibətlərin izlərini daşıyır. Bu qarğışların xalq təfəkküründə bu günədək yaşaması isə mifoloji düşüncənin gücünü və mədəni yaddaşda qorunduğunu sübut edir. Beləliklə, çevrilmə motivi xalqın kollektiv şüurunun arxaik qatlarına enmək üçün etnoqrafik və folkloristik baxımdan qiymətli açar rolunu oynayır.

Şimal-qərb bölgəsindən toplanan alqış və qarğış örnəklərində ritual düşüncə tərzi, məişət adət-ənənələrinin də öz əksini tapması bölgənin bu qədim arxaik janrı üçün özünəxas xüsusiyyətlərdəndir. Şəki rayonunun Göynük kəndindən toplanan qarğış nümunələrinə nəzər salaq: *"Səni görüm, öylərə gidif qapılar aşmiyəsan", "Səni görüm qıvliyə bəy oturmayasan".* [10, s.313]. 1-ci qarğış nümunəsində kəndə xas olan qədim məişət adət-ənənəsi əks olumuşdur. Belə ki, Göynük kəndində gəlin düşəcək ev bəzədildikdən sonra qapını bağlayırlar. Qapının qıfılını yalnız gəlin özü aça bilər. Qarğışda məhz həmin adətə işarə olunur. Göynük kəndində gəlinin düşəcəyi evin qapısının qıfılla bağlanması və yalnız gəlinin həmin qıfılı açması adəti, qədim mifik düşüncənin izlərini daşıyır. Bu adət yalnız fiziki bir hərəkət deyil, həm də gəlinin yeni həyata qədəm qoyması, ailəyə daxil olma mərasimidir. Deməli, bu məqam həm ritual, həm də simvolik xarakter daşıyır. Qarğışda işlənmiş "qapılar açılmasın" ifadəsi isə sıradan bir fiziki maneə yox, mistik və simvolik bir blokajı ifadə edir. Qapı xalq mədəniyyətində bəxtin, taleyin, yeni bir mərhələnin başlanğıcının rəmzidir. Qapının açılmaması isə insanın qismətsiz qalması, toplum tərəfindən qəbul edilməməsi, həyat yollarının bağlanması, yəni uğursuzluğa düçar olması deməkdir. Burada qapı – yalnız məişət əşyası yox, liminal məkan – keçid nöqtəsidir. Qapının açılması bir dünya halından digərinə keçidi simvolizə edir: subaylıqdan ailəli həyata, uşaqdan yetkinliyə və ya yad birindən icma üzvünə çevrilmə. Bu baxımdan, qarğış yalnızca bir fərdi ifadə deyil, həm də toplumun kollektiv arzu və qorxularının ifadəsi, bir növ verbal tabu formasıdır. Arxaik düşüncədə sözlərin mistik gücünə inam güclü olduğundan, belə ifadələr yalnız hissin yox, istənilən sosial və kosmik nizamın pozulması çağırışı kimi də qəbul edilə bilər.

Digər tərəfdən, bu qarğışın mifoloji qatında, qapının yalnız gəlin tərəfindən açılması bir növ qədim ana arxetipinin, yəni qadının yaradıcı, yol açan, taleyi müəyyən edən fiqurunun da təzahürüdür. Gəlin bu aktla yeni bir nəsil başlanğıcını simvollaşdırır. Bu mərasimdə onun rolu təkcə ailə üzvü olmaq yox, qapı açan, yəni taleyin yönünü təyin edən bir varlıq kimi qavranılır. Qarğışda isə bu rolun həyata keçməməsi istənilir – yəni qadın qismətsiz qalsın, tale yolu bağlansın. Beləliklə, "Səni görüm, öylərə gidif qapılar aşmiyəsan" ifadəsi həm ritual praktikası, həm də dil vasitəsilə kodlaşdırılmış mifoloji düşüncə sistemi baxımından dərin məna qatlarına malikdir. Bu qarğış folklorun emosional yük daşıyan, lakin eyni zamanda mədəni-mənəvi arxetipləri qoruyub saxlayan unikal bir nümunəsi kimi qiymətləndirilə bilər.

*“Səni görüm qıvliyə bəy oturmayasan”* - Bu qarğışda mərkəzi element olan “qıvliyə oturmaq” ifadəsi, sadəcə fiziki yönəlmə anlamı daşımır. Əksinə, qiblə istiqaməti türklərin islamdan əvvəlki və islam sonrası məkan və yön anlamlarında sakral (müqəddəs) bir yeri tutmuşdur. İslam dünyasında qiblə – Tanrı ilə rabitənin istiqaməti, dua və ibadət məkanı kimi qəbul olunur. Əgər bir şəxs “qibləyə oturdulursa”, bu, onun toplum içində müqəddəs bir statusa, yüksək hörmətə və mənəvi liderliyə sahib olduğunu göstərir. Xüsusilə Şəki bölgəsində bu adət "bəyin üzü qibləyə oturdulması" şəklində tətbiq olunmuş və ailə başçısının həm maddi, həm də mənəvi mərkəz olmasını simvollaşdırmışdır. Beləliklə, bu qarğışda “qıvliyə bəy oturmayasan” ifadəsi yalnız fiziki oturuş formasına deyil, ailə daxilində status qazanmaq, hörmət sahibi olmaq, mənəvi dayağa çevrilmək imkanının əlindən alınmasına yönəlik qarğışdır. Ev daxilində bəyin qibləyə oturdulması, onun ailənin "kosmik mərkəzinə" yerləşdirilməsi deməkdir. Bu, sadəcə hörmət əlaməti deyil, sosial-mistik iyerarxiyanın tanınmasıdır. Beləliklə, qarğışda həmin şəxsin bu mərkəzdən kənarlaşdırılması arzulanır. Yəni o, ailənin mərkəzi nöqtəsinə, ocaqbaşına, duanın yönəldiyi yerə oturmasın – sosial sistemin və sakral nizamın dışında qalsın. “Səni görüm qıvliyə bəy oturmayasan” – özündə həm: sosial funksiyanı (statusdan məhrum etmə), həm də mifik funksiyanı (duanın pozulması, ailə taleyinin qapanması) birləşdirir. Bu, arxaik dualist düşüncə sistemində mərkəzə qəbul və ya kənara atılma dilemmasıdır. Yəni bu qarğış, bir insanın həm ailə daxilində, həm də metafizik planda qəbul olunmamasını istəməkdir.

**Nəticə**

Şimal-qərb bölgəsindən toplanan alqış və qarğış örnəkləri, həmin bölgənin etnoqrafiyası, məişət strukturu, mifoloji inancları və qədim türk düşüncə tərzini özündə əks etdirir. Bu janrın özünəməxsusluğu ondan ibarətdir ki, burada real həyat hadisələri ilə simvolik və mifoloji dünyagörüşü vəhdətdə təqdim olunur. Şimal-qərb bölgəsinin folkloru ümumazərbaycan folklorunun özünəməxsus cəhətləriylə zəngin bir tərkib hissəsidir.

## ƏDƏBİYYAT


1. Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı I kitab. Bakı. Çıraq, 2009. 610 səh.
2. Azərbaycan folklor antologiyası. XIII cild. Şəki-Zaqatala folkloru. Bakı. Səda, 2005. 547 səh.
3. Bəhlul Abdulla. Azərbaycan mərasim folkloru. Bakı. Qismət, 2005. 208 səh.
4. Dədə Qorqud dastanı. Bakı. Səda, 2004. 152 səh.
5. Region folkloru antologiyası. (Qax, Zaqatala, Balakən rayonlarından toplanan folklor örnəkləri). Bakı. Elm və təhsil, 2018. 512 səh.
6. Oğuz və Qəbələ folkloru. Bakı. Elm və təhsil, 2024. 320 səh.
7. Şəki folkloru I cild. Bakı. Səda, 2000. 494 səh.
8. Şəki folkloru II cild. Bakı. Səda, 2002. 556 səh.
9. Şəki folkloru örnəkləri I kitab. Bakı. Nurlan, 2014. 414 səh.
10. Şəki folklor örnəkləri II kitab. Bakı. Elm və təhsil, 2014. 408 səh.
11. Şəki folklor örnəkləri III kitab. Bakı. Elm və təhsil, 2016, 364 səh.



***AMEA-nın Şəki Regional Elmi Mərkəzinin**
***“Ədəbi-mədəni mühit və folklor” şöbəsinin elmi işçisi,***
***Mərkəzin Gənc Alim və Mütəxəssislər Şurasının sədri.***
***E-mail: tural.adisirinov@mail.ru***

**Tural Adishirinov**


## TYPOLOGY AND SEMANTIC FEATURES OF APPLAUSE AND CURSING EXAMPLES FROM THE NORTHWESTERN REGION OF AZERBAIJAN


The article studies the typological and semantic characteristics of samples of applause and cursing collected from the northwestern region of Azerbaijan. The researcher analyzes these genres in terms of folklore poetics, mythological thought system, everyday ethnography, and

historical-cultural contexts. The study emphasizes the typological connections of applause and curses with the epic of Dede Gorgud. The author substantiates the survival of the applause and curse archetypes from different parts of the epic in contemporary folklore examples of the northwestern region on the basis of scientific comparisons. This approach allows for a topical and practical analysis of epic-folklore connections. The article also studies the region's curses and curses from a mythological perspective. In particular, the motif of transformation - the traces of transformation invariants into stone, bird, mountain, land, etc. in the curse texts are interpreted within the framework of the mythological paradigm. This approach can be assessed as a scientific innovation for modern folklore. In addition, the author conducts a functional analysis of the ritual and everyday customs and traditions reflected in the region's curses and curses, showing that they play an important role in preserving the code of social behavior and transmitting it from generation to generation. The article is of considerable scientific importance in terms of illuminating both the archaic layers of the genre and its current social functions.

***Key words:*** *applause and curses, archaic genre, mythological thought, Dede Gorgud epic, customs and traditions*

**Турал Адиширинов**

## ТИПОЛОГИЯ И СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ ПРИМЕРОВ АПЛОДИСМЕНТОВ И РОГАНИЗМОВ СЕВЕРО-ЗАПАДНОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА

В статье рассматриваются типологические и семантические характеристики образцов хвалебных и ругательных песнопений, собранных в северо-западном регионе Азербайджана. Исследователь анализирует эти жанры с точки зрения фольклорной поэтики, мифологического мышления, бытовой этнографии и историко-культурного контекста. Подчеркиваются типологические связи хвалебных и ругательных песнопений с эпосом «Деде Горгуд». Автор обосновывает сохранение архетипов хвалы и проклятия из разных частей эпоса в современных фольклорных образцах северо-западного региона на основе научных сопоставлений. Такой подход позволяет провести актуальный и практический анализ эпико-фольклорных связей. В статье также рассматриваются хвалы и проклятия региона в мифологическом аспекте. В частности, мотив превращения – в камень, птицу, гору, землю и т.д. – как следы инвариантов трансформации в текстах проклятий интерпретируется в рамках мифологической парадигмы. Данный подход можно считать научной инновацией для современной фольклористики. Кроме того, автор проводит функциональный анализ ритуальных и бытовых обычаев, отраженных в восхвалениях и проклятиях региона, показывая их важную роль в сохранении кодекса социального поведения и его передаче из поколения в поколение. Статья имеет существенное научное значение с точки зрения освещения как архаичных пластов жанра, так и его современных социальных функций.

***Ключевые слова:*** *аплодисменты и проклятия, архаичный жанр, мифологическая мысль, эпос «Деде Горгуд», обычаи и традиции*

*Akademik Muxtar İmanov  tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 02.04.2025**
**Son daxilolma tarixi:14.05.2025**